# Tarixi ədalətin bərpası yolunda institusional zəfər:

## İslam dünyası Qərbi azərbaycanlıların haqq səsini müdafiə edir


OIC/CFM-51/2025/DEC/FINAL/

ISTANBUL DECLARATION

ADOPTED BY THE

(51st) SESSION OF THE COUNCIL OF FOREIGN MINISTERS

(UNDER THE THEME: THE OIC IN A TRANSFORMING WORLD)

ISTANBUL, REPUBLIC OF TÜRKIYE
21st – 22nd JUNE, 2025
(25th – 26th DHU'L-HIJJAH 1446H)

**Qərbi Azərbaycana qayıdış məsələsinə beynəlxalq dəstək istiqamətində növbəti tarixi uğur əldə edilib. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Nazirlər Şurasının 51-ci sessiyasında Qərbi azərbaycanlıların öz tarixi yurdlarına dinc, təhlükəsiz və ləyaqətli şəkildə qayıtmaq hüququ birmənalı və institusional şəkildə təsbit edib. Bu, 57 üzv dövləti birləşdirən böyük təşkilatın siyasi iradəsinin növbəti təzahürü, eyni zamanda yüz minlərlə insanın pozulmuş hüquqlarının bərpası, unudulmağa məhkum edilmiş faciənin beynəlxalq gündəmin daimi və əsas mövzularından birinə çevrilməsi deməkdir. Bu hadisə Cənubi Qafqazda sülhün və ədalətin bərqərar olması üçün fundamental şərt olan tarixi həqiqətlərin beynəlxalq səviyyədə tanınması prosesində dönüş nöqtəsidir.**

Tarixi tərəfdaşlığın və dəstəyin mahiyyətini, onun geosiyasi və mənəvi əhəmiyyətini dərindən anlamaq üçün əvvəlcə problemin kökünə, Qərbi Azərbaycan adlı coğrafi və mənəvi məkanda baş verən hadisələrin xronologiyasına, bu faciənin insan talelərində və xalqın mədəni irsində buraxdığı dərin izlərə nəzər salmaq zəruridir. İndiki Ermənistan Respublikasının ərazisi olan Qərbi Azərbaycanda azərbaycanlılar əsrlər boyu sıx yaşamış zəngin mədəniyyət, ədəbiyyat və memarlıq nümunələri yaratmışlar. İrəvan xanlığından Zəngəzur mahalınadək, Göyçə gölünün ətrafından Dərələyəzə qədər hər bir daş, qaya, bulaq, kənd adı Azərbaycan xalqının tarixi yaddaşını və bu torpaqlara bağlılığını özündə əks etdirib. Aşıq Ələsgərin sazında tərənnüm olunan Göyçə, İrəvanın Sərdar sarayının əzəməti, Zəngəzurun sıldırım qayaları bu mədəniyyətin canlı şahidləridir.

XX əsrin əvvəllərindən başlayaraq bu torpaqlarda azərbaycanlılara qarşı sistemli, planlı və məqsədyönlü şəkildə etnik təmizləmə siyasəti həyata keçirilmişdir. Bu qanlı proses bir neçə mərhələdə - 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə özünün ən amansız zirvəsinə çatmışdır. Birinci mərhələdə, çar Rusiyasının süqutundan sonra yaranmış siyasi boşluqdan istifadə edən erməni daşnak qüvvələrinin törətdikləri kütləvi qırğınlar nəticəsində yüzlərlə azərbaycanlı kəndi talan edilmiş, on minlərlə dinc, günahsız insan, o cümlədən qadınlar, uşaqlar və qocalar vəhşicəsinə qətlə yetirilmiş, yurdundan didərgin salınmışlar. Sovet hakimiyyətinin qurulması ilə bu proses bir müddət səngisə də, etnik homogen Ermənistan yaratmaq ideyası heç vaxt gündəmdən düşmədi, sadəcə forma və metodlarını dəyişdi.

Bu siyasətin ikinci, daha məkrli və "qanuni" pərdə arxasında gizlədilmiş mərhələsi 1948-1953-cü illərdə həyata keçirildi. SSRİ Nazirlər Sovetinin sədri İosif Stalinin şəxsi təşəbbüsü ilə 23 dekabr 1947-ci il tarixli "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarı ilə guya xaricdən gələn erməniləri yerləşdirmək bəhanəsi ilə yüz mindən çox azərbaycanlı dağlıq, sərin və bərəkətli torpaqlarından zorla Azərbaycanın isti və quraq düzənliklərinə sürgün edildi. Bu, rəsmi sənədlərdə köçürülmə adı ilə pərdələnmiş, lakin mahiyyətcə deportasiya idi. Minlərlə insan yeni iqlim şəraitinə uyğunlaşa bilməyərək malyariya və digər ağır xəstəliklərdən həlak oldu, onların evləri, bağları, təsərrüfatları isə mənimsənildi. Bu, insanların fiziki məhvi ilə yanaşı, onların mənəviyyatına və sosial həyatına vurulan ağır zərbə idi.

Etnik təmizləmənin yekun və ən faciəvi mərhələsi isə SSRİ-nin süqutu ərəfəsində, Mixail Qorbaçovun "yenidənqurma" və "aşkarlıq" siyasətinin yaratdığı xaos şəraitində, 1987-1991-ci illərdə baş verdi. Qarabağda separatçı hərəkatın baş qaldırması ilə eyni vaxtda Ermənistanda yaşayan 300 mindən çox azərbaycanlı kütləvi zorakılıq, psixoloji təzyiq, işdən qovulma və açıq qətllər yolu ilə doğma yurdlarından qovuldu. Bu proses nəticəsində Ermənistan faktiki olaraq monoetnik dövlətə çevrildi. Yüzlərlə məscid, minlərlə qəbiristanlıq, karvansaralar, tarixi abidələr və hətta toponimlər belə, bu aqressiv siyasətin qurbanı oldu. İrəvan şəhərindəki XVI əsrə aid Abbas Mirzə məscidi, Sərdar sarayı kompleksi kimi memarlıq inciləri yerlə-yeksan edildi. Göy məscid istisna olmaqla, Qərbi Azərbaycandakı 300-ə yaxın məscidin dağıdılması, təyinatının dəyişdirilərək anbara və ya tövləyə çevrilməsi, 500-dən çox qəbiristanlığın məhv edilməsi soyqırımın, kultursidin miqyasını aydın şəkildə göstərir.

Bu tarixi ədalətsizliyin aradan qaldırılması və qaçqınların beynəlxalq hüquqla təsbit olunmuş fundamental hüququ olan qayıdış hüququnun təmin edilməsi məqsədilə yaradılan Qərbi Azərbaycan İcması fəaliyyətə başladığı ilk gündən problemin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması üçün gərgin iş aparır. İcmanın səyləri, xüsusilə Azərbaycan dövlətinin və Prezident İlham Əliyevin bu məsələni milli ideologiyanın və xarici siyasətin prioritet istiqamətlərindən birinə çevirməsindən sonra daha da intensivləşdi. Bu məsələ milli kimliyin və dövlətçilik maraqlarının tərkib hissəsi kimi dəyərləndirildi. İcma tərəfindən hazırlanan və dinc qayıdışın yol xəritəsini müəyyən edən "Qayıdış Konsepsiyası" bu fəaliyyətin konseptual əsasını təşkil etdi. Konsepsiyanın təməl prinsipi, Ermənistanın ərazi bütövlüyü və suverenliyinə hörmət çərçivəsində, beynəlxalq hüquq normalarına, xüsusilə də İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin 13-cü maddəsinə uyğun olaraq, azərbaycanlıların evlərinə sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasını təmin etməkdir.

İslam Əməkdaşlıq Təşkilatının beynəlxalq platformalarda nümayiş etdirdiyi mövqe xüsusi əhəmiyyət kəsb edir. Təşkilatın dəstəyi bir gecədə yaranmayıb, bu, münaqişənin bütün dövrlərində Azərbaycanın haqq işinə verilən ardıcıl və prinsipial dəstəyin məntiqi davamıdır. Lakin son illər, xüsusilə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən sonra yaranmış yeni reallıqlar fonunda İƏT-in dəstəyi keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Bu prosesin ilk təzahürü 2024-cü ilin may ayında Qambiyanın paytaxtı Banculda keçirilən İƏT-in 15-ci Zirvə Görüşü oldu. Sammitdə 57 üzv dövlət yekdilliklə Ermənistandan zorla qovulmuş azərbaycanlıların taleyindən narahatlıq ifadə edərək, onların doğma yurdlarına sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıdış hüququnu birmənalı şəkildə dəstəklədi. Bu qərarla İƏT Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışına dəstək ifadə edən ilk qlobal beynəlxalq təşkilatdır.

Azərbaycan rəhbərliyinin təşəbbüsü ilə Bancul Zirvə görüşündə əldə edilmiş bu tarixi nailiyyət İƏT Nazirlər Şurasının cari ilin iyununda keçirilən 51-ci sessiyasında daha da möhkəmləndirildi və institusional müstəviyə keçdi. Sessiya həm də konkret addımları nəzərdə tutan qətnamə ilə yadda qaldı və yekun Bəyannaməsinə Qərbi Azərbaycan məsələsi barədə xüsusi bənd daxil edildi və ən əsası, "Hazırkı Ermənistan ərazisindən zorla və sistematik şəkildə didərgin salınmış azərbaycanlıların qayıdış hüququ" adlı ayrıca qətnamə qəbul olundu. Bu, İƏT çərçivəsində birbaşa bu məsələyə həsr olunmuş ilk sənəddir. Sözügedən sənəddə İƏT üzv dövlətləri Ermənistan tərəfindən Qərbi azərbaycanlılara qarşı törədilmiş deportasiyanı, onların mədəni irsinin dağıdılmasını və Qərbi Azərbaycan İcmasının qayıdış hüququnun inkar olunmasını qətiyyətlə qınayır. Qətnamənin qəbulu ilə Qərbi Azərbaycan məsələsi artıq rəsmən İƏT-in gündəliyində əsas mövzulardan biri kimi təsbit olunub və təşkilatın icra strukturlarına bu mövzu ilə müntəzəm məşğul olmaq tapşırığı verilib. Bu o deməkdir ki, məsələ artıq birdəfəlik bəyanatlarla məhdudlaşmayacaq, təşkilatın daimi fəaliyyət istiqamətlərindən birinə çevriləcək. Bundan əlavə, sənədlərdə Ermənistan tərəfinin Qərbi Azərbaycan İcması ilə dialoqdan imtina etməsi də pislənilir ki, bu da İcmanın sülh təşəbbüslərinə qarşı Ermənistanın destruktiv mövqeyinə verilən beynəlxalq səviyyəli siyasi qiymətdir.

İstanbulda əldə olunan bu diplomatik zəfər, Azərbaycan rəhbərliyinin təşəbbüsü ilə ötən il İƏT Bancul Zirvə görüşündə Qərbi Azərbaycan mövzusunda qəbul edilmiş qərardan sonra İƏT Nazirlər Şurasının sözügedən qərarları verməsinin təşkilatın bu məsələdə ardıcıl və prinsipial yanaşma tutduğunu sübut edir. Bu, həm də Azərbaycanın postmünaqişə dövründə regionda sülh və əməkdaşlıq üçün göstərdiyi səylərin məntiqi nəticəsidir. Azərbaycan Ermənistanla münasibətlərin normallaşması, sərhədlərin delimitasiyası və kommunikasiyaların açılması istiqamətində ardıcıl addımlar atır. Bu fonda Qərbi azərbaycanlıların qayıdış hüququnun tələb edilməsi sülh prosesinə əngəl deyil, əksinə, onun ayrılmaz tərkib hissəsidir. Çünki həqiqi və davamlı sülh yalnız ədalət üzərində qurula bilər.

Qərbi Azərbaycan İcması İƏT Nazirlər Şurasının bu qərarlarını ürəkdən alqışlayaraq, onların qəbul edilməsinə görə üzv dövlətlərə dərin təşəkkürünü bildirib. İcmanın açıqlamasında vurğulandığı kimi, İcma sözügedən qərarların beynəlxalq hüququn və insan hüquqlarının aliliyinin, bölgədə sülh, barışıq və ədalətin bərqərar olunmasına töhfə verəcəyinə inanır. Bu, həqiqətən də onilliklər boyu davam edən mübarizənin beynəlxalq səviyyədə tanınması və haqlı mövqeyinin təsdiqidir. İƏT-in bu ardıcıl və prinsipial mövqeyi göstərdi ki, İslam dünyası öz üzvünün üzləşdiyi tarixi ədalətsizliyə biganə deyil və pozulmuş hüquqların bərpası üçün siyasi və mənəvi dəstəyini əsirgəmir.

İƏT-in bu dəstəyi həm də digər beynəlxalq təşkilatlar üçün bir presedent və mənəvi çağırış yaradır. Artıq Qərbi Azərbaycan İcmasının müraciətləri Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası, Baş Assambleya, İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayılır. Qoşulmama Hərəkatı, TÜRKPA və Asiya Parlament Assambleyası kimi qurumların yekun sənədlərində Qərbi azərbaycanlıların qayıdış hüququna dəstək ifadə edilib. Bütün bunlar göstərir ki, Qərbi Azərbaycan həqiqətləri tədricən dünya gündəminin bir parçasına çevrilir və bu məsələ artıq yalnız Azərbaycanın milli problemi deyil, beynəlxalq insan hüquqları gündəliyinin aktual mövzusudur.

Qərbi Azərbaycan İcmasının birmənalı dəstəyi yurd həsrəti ilə yaşayan, lakin qayıdış ümidini heç vaxt itirməyən yüz minlərlə insanın qəlbinə ümid gətirir və onlara bu haqq yolunda yalqız olmadıqlarını nümayiş etdirir. Ermənistanın konstruktiv dialoqdan yayınır, beynəlxalq hüquqa məhəl qoymur. Lakin beynəlxalq hüququn gücü, siyasi dəstəyin artması və yurda qayıtmaq arzusunu qəlbində yaşadan xalqın sarsılmaz iradəsi bu yolun sonunda ədalətin zəfər çalacağına dərin inam yaradır. İslam Əməkdaşlıq Təşkilatının İstanbulda atdığı cəsarətli və prinsipial addım, şübhəsiz ki, bu mürəkkəb, lakin şərəfli yolda ən mühüm bələdçi və dayaq nöqtəsi olacaq.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**